# BEYNƏLXALQ SEÇKI MÜŞAHIDƏ MISSIYASI

## Azərbaycan Respublikası – Prezident Seçkiləri, 9 oktyabr 2013-cü il

## İLKİN FAKTLAR VƏ NƏTİCƏLƏR ÜZRƏ BƏYANAT

**Bakı, 10 oktyabr 2013-cü il** – İlkin Faktlar və Nəticələr üzrə Bəyanat ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (ATƏT/DTİHB) və ATƏT Parlament Assambleyasının (ATƏT PA) birgə səyləri nəticəsində ərsiyə gələn sənəddir.

Mişel Vuazan (Fransa) ATƏT-in qısamüddətli müşahidə missiyasına rəhbərlik etmək üçün ATƏT-in fəaliyyətdə olan sədri tərəfindən Xüsusi Əlaqələndirici vəzifəsinə təyin olunmuşdur. Doris Barnet (Almaniya) AŞPA PA nümayəndə heyətinə rəhbərlik edir. Tana de Zulueta (İtaliya) 28 avqust 2013-cü il tarixindən işə başlayan ATƏT/DTİHB-nin Seçki Müşahidə Missiyasının (SMM) rəhbəridir.

Qimətləndirmə seçkilərin ATƏT qarşısında götürülən öhdəliklərə, Avropa Şurasının demokratik seçkilər üzrə standartlarına, və həmçinin Azərbaycanın tərəf olduğu beynəlxalq öhdəliklərə və yerli qanunvericiliyə uyğun olub-olmadığını müəyyən etmək üçün aparılmışdır. İlkin faktlar və nəticələr üzrə bu bəyanat seçki prosesi başa çatmadıqdan əvvəl dərc olunur. Seçkilər üzrə yekun hesabat qismən səslərin hesablanması, protokollaşdırılması və nəticələrin elan olunması, seçkidən sonra ortaya çıxa bilən şikayət və müraciətlərə baxılması da daxil olmaqla, seçki prosesinin növbəti mərhələlərinin hansı tərzdə aparılmasından asılı olacaq. Seçki prosesinin başa çatmasından təxminən səkkiz həftə sonra ATƏT/DTİHB potensial təkmilləşdirməli də özündə əks etdirən yekun təfsilatlı hesabatını dərc edəcəkdir. ATƏT PA öz hesabatını Daimi Komitənin oktyabrın 13-də Budva şəhərində keçirilən toplantısında təqdim edəcək.

## İLKİN NƏTİCƏLƏR

9 oktyabr Prezident seçkiləri ifadə, toplaşma və təşkilatlanma azadlıqlarına tətbiq edilən məhdudiyyətlərin təsiri altında keçirilmiş və namizədlərə bərabər şərait təmin edə bilməmişdir. Namizədlərin və seçicilərin hədələnməsi və məhdudlaşdırıcı mətbuat mühiti təşviqat kampaniyasına ləkə salmışdır. Seçki günü keçirilən proseslərin hər bir mərhələsində əhəmiyyətli problemlər müşahidə olunmuşdur ki, bunlar da, ATƏT qarşısında həqiqi və demokratik seçkilərlə əlaqədar Azərbaycanın götürdüyü öhdəlikləri bütövlüklə yerinə yetirməkdə üzləşdiyi çatışmamazlıqların ciddi mahiyyətini nümayiş etdirmişdir.

Ümumilikdə, müvafiq son tarixlərə riayət etməklə, Mərkəzi Seçki Komissiyası (MSK) seçkilər üçün texniki hazırlıq işlərininin səmərəli şəkildə idarə olunmasını təşkil etmişdir. MSK müşahidəçilər və mətbuat üçün açıq olan müntəzəm iclaslarını keçirmiş və qərarlarını vaxtı-vaxtında dərc etmişdir. Bununla belə, seçki komissiyalarının təşkili prinsipi hökümət yönümlü qüvvələrə qərarların qəbul olunmasında *de-fakto* üstünlük verir. Seçki administrasiyasının qərəzsiliyinə müxalifət nümayəndələrinin inamının aşağı səviyyədə olmasını nəzərə alsaq, sözügedən prinsip bu inamsızlığı daha da dərinləşdirə bilər.

Seçkilərdə toplam on namizəd qeydiyyatdan keçmişdir. Namizədlər müstəqil olaraq və yaxud siyasi partiyalar tərəfindən irəli sürülə bilərdilər. Tələb olunan sayda etibarlı imza toplamadıqlarına görə dörd şəxsin namizədliyi MSK tərəfindən qeydiyyata almamışdır. Namizədliyi qeydə alınmayan şəxslər MSK-nın toplanmış imzaları yoxlayan ekspert qrupunun imzaları etibarsız saymağa əsas verən meyarlarını şübhə altına almış və verilən qərarlardan məhkəməyə müraciət etmişdirlər, lakin məhkəmə heç bir iddiaçının xeyrinə qərar çıxarmamışdır. Namizədlərin qeydə alınması üçün tətbiq olunan ali təhsil və ölkədə ən azından 10 il yaşamaq kimi məhdudlaşdırıcı tələblər beynəlxalq standartlarla ziddiyət təşkil edir.

Seçkiqabağı təçviqat kampaniyası əsasən mütəəssir keçmiş və ictimaiyyət arasında məhdud marağa səbəb olmuşdur. MSKseçkiqabağı təşviqattədbirləri və namizədlərin görüşləri üçün 152 məkan təyin etmişdir ki, bu siyahını da rəsmi orqanlar müfəssəl adlandıraraq, vətəndaşların azad toplaşma hüququna lüzumsuz məhdudiyyət tətbiq etmişdirlər. Nəzərə alsaq ki, siyasi rəqiblərin seçicilərlə ünsiyyəti 22 günlük rəsmi kampaniya müddəti ilə məhdudlaşır, görüş yerləri ilə əlaqədar yanaşma kampaniya keçirmək imkanlarını daha da azaltmış olur. Kampaniya müddətində namizədlərə və seçicilərə qarşı hədə-qorxu halları haqqında etibarlı məlumatlar ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 7.7-ci maddəsinin tələbinə uyğun olaraq namizədlərin azad və ədalətli mühitdə kampaniya aparması və həmçinin, seçicilərin "qorxu hissindən azad" şəkildə səs vermə imkanları üzrə narahatlığı artırır.

Ümumiyyətlə, namizədlər üçün mətbuata kifayət gədər çıxış imkanı yaradılmamış, və siyasi alternativlər üzrə balanslaşdırılmış və açıq fikir mübadiləsi çatışmamışdır. Əksəriyyət tərəfindən İnternetin azad məkan kimi qəbul olunur və onun istifadəçilərinin sayı artmaqdadır. Lakin, qanunvericiliyə edilən son dəyişikliklər,İnternet informasiya ehtiyyatlarına difamasiya müddəalarının tətbiqinitəsbit etmişdir. Həbslər, cinayət təqibi, fiziki hücumlar və digər təzyiq formaları mətbuatla əlaqədar vəziyyətə mənfi təsir göstərmişdir. Məhdudlaşdırıcı hüquqi çərçivə və kampaniya dövründə hazırkı Prezidentin fəaliyyətinin aşkar şəkildə qeyri-mütanasib işıqlandırılması namizədlər arasında bərabər şəraitin qıtlığını daha da dərinləşdirmişdir. Bu ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 7.8 bəndinin tələbləri ilə ziddiyat təşkil edir və seçicilərin məlumatlı seçim etmək imkanlarını məhdudlaşdırır.

Qanunvericiliyə edilən son dəyişliklərə baxmayaraq, seçki komissiyalarının təşkili prinsipi və namizədlərin qeydiyyatı kimi əhəmiyyətli müddəalər da daxil olmaqla, son Prezident seçkilərindən sonra ATƏT/DTİHB-nin verdiyi tövsiyyələr qanunvericilikdə öz əksinə tapmamışdır. Seçkilərin keçirilməsi üçün ayrılmış ümumi müddət qısaldılmışdır və, bəzi məqamlarda, hazırlıq işinin aparılması və hüquqda təsbit olunmuş imkanlardan istifadə etmək üçün yetərli deyildir. Bu bütün tərəflərin iştirakını təmin etməklə, davamlı seçki islahatlarına olan ehtiyacı bir daha vurğulayır.

Seçki ilə əlaqədar müraciətlərin baxılması prosesində qərəzsizlik gözlənilməmiş və hüquqi müdafiənin səmərələli təşkili üçün ərizəçiyə yetərli zəmanət verilməmiş və əks qərarların haqlı olub-olmaması üzrə əsaslandırılma təmin etməmişdir. Birinci instansiya məhkəməsində baş verən prosessual qaydalar üzərində nəzarətin zəif olması appelyasia səviyyəsində də bu məsələrin həllinə şərait yaratmır.

Seçici siyahıları vətəndaşların qeydiyyatı reestri əsasında MSK-nın idarə etdiyi seçicilərin daimi qeydiyyat bazasından istifadə edərək tərtib olunur. Seçicilər siyahılarla tanış olmaq və onlara dəyişiklik edilməsini

tələb edə bilərlər, lakin MnSK-ların qapı-qapı gəzib apardığı yoxlama əsasında etdiyi dəyişikliklərin hüquqi əsasları aydın deyil. Yekun seçici siyahısı Dövlət Statistika Komitəsinin seçki hüququna çatmış, 18 yaşdan yuxarı olan şəxslərin sayından bir gədər az olan 1,8 milyon insanı daxil edir. Hökümət əhali sayına həmçinin xaricdə yaşayan Azərbaycanlıların və ölkədə məskunlaşan xaricilərin daxil olması ilə, və vətəndaşların və seçicilərin sayının hesablanması metodologiyaları arasındakı müxtəlifliklə qismən izah edilməsini qeyd edir; lakin, fərqlə əlaqədar ictimaiyyətə məlumatın yetərincə çatdırılmaması seçicilər arasında seçici siyahılarına olan inamamənfi təsir göstərə bilər.

Prezidentliyə namizədliyi irəli sürülmüş şəxslər arasında qadınlar yoxdur. Seçki administrasiyasının bütün səviyyələrində qadınlar kifayət gədər az təmsil olunurlar və seçki günü bu hal MnSK səviyyəsindəmüşahidə olunmuşdur.

MSK ATƏT/DTİHB-nin SMM-na məlumat vermişdir ki, kampaniya üçün sərf olunan maliyyə və hesabatların təqdim olunma tarixləri ilə əlaqədar bütün namizədlər qanunun tələblərinə riəyət etmişdirlər. Eyni zamanda, ictimai araşdırma üçün məlumatın olmaması və auditin keçirilməməsi şəffaflığı və hesabatlılığı məhdudlaşdırır.

Bütün tərəflərin iştirakını təmin etməklə, MSK və DSK-lar 45,868 vətəndaşı siyasi partiya və yaxudn fərdi müşahidəçi qismində qeydə almışdır. Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi adlanan vətəndaşların müşahidə qrupuna hüquqi status verilməmiş və onların müşahidəçiləri fərdi olaraq qeydiyyatdan keçməli olublar.

Seçki günündə BSMM hesabatları yüksək seçici iştirakı barədə məlumatlar vermiş; MSK-nın bu rəqəmin 72,3% səviyyəsində olmasını elan etmişdir. Müşahidə aparılan seçki məntəqələrinin 20%-də açılış prosedurları mənfi qiymətləndirilmiş; bunun əhəmiyyətli dərəcədə yüksək rəqəm olması ciddi problemlərin mövcudluğuna dəlalət edir. Qeydiyyatdan çıxma vərəqələrinin ləğvi, ayrılan seçki bülletenlərinin sayının və seçki qutularının möhürlərinin seriya nömrələrin qeyd olunmaması kimi prosedur çatışmamazlıqları dəfələrlə müşahidə olunmuşdur. BSMM müşahidəçiləri müşahidə etdikləri məntəqələrinin 11%-də seçki prosesini mənfi olaraq qiymətləndirmişdirlər. BSMM müşahidəçiləri 37 məntəqədə hesabatlılığın təmin olunması üçün minimal tədbirlərin gözlənilməməsi və potensial saxtakarlığın qarşısının alınmaması nəticəsində seçki qutularına topa bülleten atılmasının aşkar izləri haqda məlumat vermişdir və bir sıra digər prosedural pozuntular müşahidə olunmuşdur.

Səslərin hesablanması xeyli dərəcədə mənfi hallarla səciyyələnmiş, müşahidə olunan seçki məntəqələrinin 58%-da pis və yaxud çox pis kimi dəyərləndirilmiş və ciddi problemlərin olmasını nümayiş etdirmişdir. Səslərin hesablanması zamanı aparılan müşahidə nəticəsində BSMM müşahidəçiləri 15% məntəqələrdə seçici siyahılarına adların daxil edilməsi, həmçinin bir namizədin aldığı səslərinin digər namizədə yazılması da daxil olmaqla, protokolların nəticələri ilə manipulyasiyalar halları haqda məlumat vermişdirlər. Nəticələrin protokollaşdırılmasının müşahidəsi 125 DSK-dan 95-də aparılmışdır. Məntəqə seçki komissiyasının təqdim etdiyi nəticələrin yoxlanılması və emal olunması kimi mühüm prosedurlara adətən riayət olunmamışdır.

# İLKİN FAKTLAR

## Tarixçə

Avqustun 2-də Mərkəzi Seçki Komissiyası (MSK) prezident seçkilərinin 9 oktyabr tarixində keçiriləcəyini elan etmişdir. 2008-ci ildə keçirilən son prezidentlər seçkilərində Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndəsi İlham Əliyev 88,7% səs toplayaraq ikinci müddətə seçilmişdir. 2010-cu ildə keçirilən parlament seçkilərində YAP 125 yerli parlamentdə 69 yer qazanaraq çoxluğa malik olmuşdur, müxalif Müsavat və Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) isə parlament təmsilçiliklərini itirmişdirlər. Parlamentdə təmsil olunan sayca ikinci böyük qrup 42 müstəqil deputatdan ibarətdir ki, onlar da adətən səsvermədə hakim partiyanın tərəfində çıxış edirlər.[1] Qalan 12 yeri on siyasi partiya tutmuşdur və 2 yer hal-hazırda boşdur. 7 iyun 2013-cü ildə müxalif qüvvələr Demokratik Qüvvələrin Milli Şurasını (DQMŞ) yaratmış və vahid namizədi irəli sürmək haqqında niyyətlərini bəyan etmişdirlər. 24 iyul tarixində hazırkı Prezident üçüncü müddətə seçilmək niyyətini elan etmişdir.

## Seçki sistemi və hüquqi çərçivə

Prezident seçkiləri əsasən Seçki Məcəlləsi (son dəyişikliklər 2013-cu ilin aprel ayında edilmişdir) və Konstitusiya (son dəyişikliklər 2009-cu ildə edilmişdir) ilə tənzimlənir[2]. İlk turda seçilmək üçün namizəd etibarlı səslərin 50 faizdən çoxunu qazanmalıdır.2009-cu il keçirilən referendumda Konstitusiyaya edilən dəyişikliklər nəticəsində bir şəxsin təkrarən iki dəfədən artıq prezident seçilməsiniəngəlləyən məhdudiyyət aradan qaldırılmışdır. Avropa Şurasının Hüquq Vasitəsilə Demokratiya Uğrunda Komissiyasının (Venesiya Komissiyası) bəyan etmişdir ki, təkrarən prezident seçilməklə əlaqədar Konstitusiya təsbit olunmuş məhdudiyyət Azərbaycanda demokratiyanın möhkəmlənməsi üçün mühüm rol oynayır.[3] 2 oktyabr tarixində Cəmil Həsənli (DQMŞ) hazırkı dövlət başçısının köhnə Konstitusiyaya əsasən seçilməsini və and içməsini rəhbər tutaraq onun yenidən qeydə alınmasına qarşı iddia irəli sürmüş, lakin bu iddia MSK tərəfindən rədd edilmişdir.

Seçki Məcəlləsinə 2010-cu ilin iyununda, 2011-ci fevralında və 2012-ci aprelində və 2013-cü ilin aprelində dəyişikliklər edilmişdir. 2010-cu ildə edilən əlavə və dəyişikliklər namizədlərin seçkiqabağı təşviqat üçün ictimai maliyyə əldə etmək imkanlarını dayandırıb və kampaniya müddətini 22 günə gədər azaltmışdır. Siyasi rəqiblərin formal kampaniya müddətindən kənar təşviqat aparmasının mümkün

---

[1] Bu qiymətləndirmə parlamentdə keçirilən müzakirələrin stenoqramına əsasən verilib: demək olar ki, parlamentin qəbul etdiyi bütün qərarlar yalnız bir neçə nəfərin əleyhinə səs verməsi ilə təsdiq olunur. Məlumat üçün: http://meclis.gov.az/?/az/stenoqram/

[2] Digər müvafiq qanunlar: 1998-cı ildə qəbul olunmuş "İfadə azadlığı haqqında" qanun (son dəyişiklər 2012-ci ildə edilib), 2000-ci il qəbul olunmuş "Qeyri-hökumət təşkilatları haqqında" qanun (son dəyişiklər 2013-cü ildə edilib); 2004-cü qəbul olunmuş "Hüquqi şəxslərin dövlət qeydi-yyatı və dövlət reyestri haqqında" qanun (son dəyişiklər 2012-ci ildə edilib); 2004-ci ildə qəbul olunmuş "Radio və Televiziya Yayımları haqqında" qanun (son dəyişiklər 2012-ci ildə edilib); "İnformasiya əldə etmək haqqında" qanun (son dəyişiklər 2012-ci ildə edilib); Cinayət Məcəlləsi, İnzibati Prosessual Məcəllə və Mülki Prosessual Məcəllənin müvafiq müddəaları; və MSK-nın təlimat və qaydaları.

[3] Azərbaycan Respublikasının Konstitusiyasına təklif olunan dəyişikliklər üzrə Venesiya Komissiyasının 2009-cu ildə verdiyi rəy: http://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2009)010-e.

olmamasını nəzərə alsaq, sözügedən dəyişikliklər onların seçicilərlə ünsiyyət imkanlarını daha da məhdudlaşdırır. Şikayətlər və müraciətlərlə əlaqədar bir sıra çərçivə sənədlərin dəyişilməsinə baxmayaraq, seçki komissiyaların və şikayətlər üzrə ekspert qrupuntəşkili prinsipi, maliyyə depoziti ni bərpa etmək, namizədlərin qeydə alınması üzrə son tarixləri yenidən nəzərdən keçirmək kimi ATƏT/DTİHB-nin digər tövsiyyələri qanunvericilikdə öz əksini tapmamışdır.

Seçki Məcəlləsində seçkilərin keçirilməsi üçün ayrılmış müddət qısaldılmışdır və bəzi məqamlarda hazırlıq işinin aparılması və hüquqi prosedurların keçirilməsi üçün yetərli deyildir.

Seçkilərin keçirilməsi üçün ayrılmış müddət qısaldılmışdır və bəzi məqamlarda hazırlıq işinin aparılması və hüquqi prosedurlar ın keçirilməsi üçün yetərli deyildir. Namizədliyin irəli sürülməsi üçün mövcud hüquqi çərçivə bir sıra potensial namizədlərin imza toplmaları üçün digərləri ilə müqayisədə daha az vaxta malik olması deməkdir: namizədliyi irəli sürülmüş şəxslərin müraciətləri kampaniya müddətinin yarısından çoxu keçməsinə baxmayaraq hələ də məhkəmə tərəfindən baxılmamışdır, və bu da öz növbəsində, seçki bülletenlərinin çapının ləngiməsinə və iddiası təmin olunan namizədin təşviqat üçün daha məhdud vaxta sahib olması ilə nəticələnə bilərdi.

2012 və 2013-cü illərdə bir sıra qanunlara edilən dəyişikliklər icazəsiz mitinqləri təşkil və onlarda iştirak etmək də daxil olmaqla, sərbəst toplaşmaq azadlığı və vətəndaş cəmiyyətinin işini tənzimləyən qanunlara edilən son dəyişikliklər ictimai asayişin pozulmasına görə cəzaları artırmış, qeyri-hökumət təşkilatlarının maliyyə cəlb etməsi üçün əlavə bürokratik tələblər qoymuş və bu qanunları pozanlara qarşı cərimələri artırmışdır.[4] Bu dəyişikliklər vətəndaş cəmiyyətinin fəaliyyətini, və həmçinin ifadə və toplaşma azadlıqlarını daha da məhdudlaşdırmışdır.

## Seçki Administrasiyası

Prezident seçkiləri Mərkəzi Seçki Komissiyası (MSK), 125 Dairə Seçki Komissiyası (DSK) və 5273 məntəqə seçki komissiyalarından (MnSK) ibarət üç pilləli struktura malik qurum tərəfindən idarə olunur. Bütün komissiyalar müvafiq olaraq 18, 9 və 6 nəfərdən ibarətdirlər.Xüsusi kateqoriyasına daxil olan hərbi hissə, həbsxana, xəstəxana və dənizdəki neft platformalarında əlavə 181 seçki məntəqəsi yaradılmış və 38 seçki məntəqəsi isə ölkədən kənarda, diplomatik nümayəndəlik və konsulluqlarında təşkil edilib.

Ümumiyyətlə, seçkilərin səmərəli keçirilməsi üçün seçki administrasiyası müvafiq son tarixləri riayət və aidiyyatı normativ aktları qəbul etmişdir. MSK müşahidəçilər, KİV və namizədlərin nümayəndələri üçün açıq olan mütəmadi iclaslarını keçirmişdir. MSK-nın qərarları əksrə hallarda kollegial qaydada qəbul olunmuş və vaxtı-vaxtında qurumun İnternet səhifəsində dərc edilmişdir.

Bütün komissiyalar beş illik müddətə seçilən daimi orqanlardır.MSK üzvləri parlament tərəfindən seçilir, DSK-lar Mərkəzi Seçki Komissiyası və MnSK-lər isə müvafiq DSK-lar tərəfindən təyin edilir.Komissiya üzvlərinin üçdə biri parlament çoxluğunu, üçdə biri parlament azlığını və üçdə biri isə müstəqil

[4] BMT-nin İnsan Hüquqları Şurasının Xüsusi Məruzəçisinin 4 oktyabr tarixində etdiyi şərhlərinə baxın: http://www.un.org/apps/news/story.asp?NewsID=46193&Cr=azerbaijan&Crl=#.UIJkvVCnrG4.

deputatlarıtəmsil edir. Qanuna əsasən, bütün komissiya sədrləri parlament çoxluğunun namizədidirlər. Beləliklə, parlament çoxluğu *de-fakto* bütün seçki komissiyalarında səs çoxluğuna malikdir.[5]Komissiya üzvlərinin üçdə biri parlament çoxluğunu, üçdə biri parlament azlığını və üçdə biri isə müstəqil deputatlarıtəmsil edir. Qanuna əsasən, bütün komissiya sədrləri parlament çoxluğunun namizədidirlər. Beləliklə, parlament çoxluğu de fakto bütün seçki komissiyalarında səs çoxluğuna malikdir. Seçki administrasiyasının qərəzsiliyinə müxalifət nümayəndələrinin inamının aşağı səviyyədə olmasını nəzərə alsaq, sözügedən təşkil prinsipi etibarsızlığı daha da dərinləşdirə bilər.

MSK DSK və 32,000-ə yaxınMnSK üzvünə seçki gününün prosedurları ilə bağlı təlim keçmiş və müvafiq təlim materialları çap etmişdir. Eyni zamanda, MSK seçicilər üçün məlumat plakatları və televiziyaya çıxış imkanı təmin etmişdir. ATƏT/DTİHB-in əvvəlki tövsiyyələrinə uyğun olaraq, MSK həbsxanalardasəsvermə prosesini təşkil edən polis nəfərləri və təcridxana əməkdaşlarına, hərbi hissələrdə, diplomatik missiya və konsulluqlardabu işin təşkilinə cavabdeh olan şəxslər üçün təlim keçmişdir.

Ölkə böyu 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılmışdır. Iyunun 5-də MSK veb-kameralar istifadəsinin tənzimləyən təlimat qəbul etmişdir, və bununla səsvermə və səslərin hesablanması zamanı aparılan çəkilişlərin şikayətlərin araşdırılmasında dəlil kimi istifadə olunması izah olunmuşdur. ATƏT/DTİHB-lə ünsiyyətdə olan bəzi şəxslər səsvermənin konfindensiallığının potensial pozulması ilə əlaqədar narahatçılıqlarını izhar etsələr belə, digərləri veb-kameraların daha geniş tətbiqinin tərədarlarıdır.

Seçki komissiyaların tərkibində gender bərabərliyi üzrə kvota mövcud deyil. MSK ATƏT/DTİHB-nə məlumat vermişdir ki, DSK üzvlərinin 15% və MnSK üzvlərinin 34% qadınlardır. MSK-nın 18 üzvündən dördü qadındır.

## Seçici Qeydiyyatı

Məhkəmə qərarı ilə bu hüquqdan məhrum olan şəxslər istisna olmaqla, 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçməkhüququ vardır. Seçici qeydiyyatı passiv xarakter daşıyır və seçici siyahıları MSK-nın idarə etdiyi seçicilərin daimi qeydiyyat bazası əsasında tərtib olunur. Seçicilər müvafiq seçki məntəqəsinin ərazisində daimi yaşaması faktına əsasən qeydə alınır (seçkilərin elan olunması günündən əvvəlki 12 ayın azı 6 ayı ərzində seçki məntəqəsinin ərazisində yaşaması faktı da əsas götürülür).İctimai yerlərdə məlumat plakatlarının və seçicilərin tanış olması üçün seçki məntəqələrində siyahıların asılması vasitəsilə vətəndaşların adlarını seçki siyahılarında yoxlamağa sövq etmə işi seçki administrasiyasının bütün səviyyələrində müşahidə olunmuşdur. Seçicilərадlarının siyahıda olub-olmamasını MSK-nın İnternet səhifəsi və yaxudqaynar xəttə vasitəsilə yoxlaya bilərlrə. MSK-nın ATƏT/DTIHB-NIN SMM-na verdiyi məlumata görə seçici siyahısının yoxlanılması ilə bağlı onlayn və ya qaynar xətt vasitəsilə 4,000 gədər müraciət daxil olub.

[5]ATƏT/DTİHB-nun və Venesiya Komissiyasının 2004-cü ildə verdiyi birgə rəyinə (no. 286.2004) baxın: "Komissiyalar bütün əsas maraqlı tərəflərin etimadını qazanmalıdırlar. Bu məqsədə nail olmaq üçün onlar hökümət yönümlü qüvvələr tərəfindən idarə olunmamalıdırlar. Mövcud müddəalar bunu təmin etmək üçün yetərli deyil". http://www.osce.org/odihr/elections/azerbaijan/41715

Qanunvericiliyə uyğun olaraq, 5,016,365 qeydə alınmış seçicinin adını əks etdirən yekun seçici siyahısı 14 sentyabr tarixində dərc olunmuşdur.6 Bu da may ayında edilən yenilənmədən sonra təxminən 30,000 nəfərin əlavə olunması deməkdir. Qanunla və MSK-nın təlimatlarına əsasən tələb olunmasa belə, MSK ATƏT/DTIHB-NIN SMM-na bildirib ki, bir çox hallarda MnSK üzvləri evləri qapı-qapı gəzib, seçici siyahılarının dəqiqləşdirilməsini aparmışdırlar. Müvafiq təlimat/tələb olmadığı halda, MnSK üzvlərinin bu dəqiqləşdirməni hansı qanun əsasında apardığı müəmmalı qalır. Fərqi daha dəqiq başa düşmək üçün ATƏT/DTIHB-NIN SMM-nın 14 sentyabrda dərc olunan siyahıdan çıxarılan və ya ora daxil edilən seçici sayının MSK-dan istəməsinə baxmayaraq, MSK həmin siyahını təqdim etməmişdir. Bu məlumatın dərc olunması şəffaflığın və etimadın artmasına kömək edə bilər.

Dövlət Statistika Komitəsinin ATƏT/DTIHB-NIN SMM-a verdiyi məlumata əsasən, 2013-cü il yanvarın 1-nə qədər olan məlumata görə ölkənin yaşı 18-dən yuxarı olan əhalisinin sayı təxminən 6,8 milyona bərabərdir. Yekun seçici siyahısında seçicilərin sayı Dövlət Statistika Komitəsinin məlumatında seçki hüququna malik şəxslərin sayından 1,8 milyon azdır.[7]Hökümət əhali sayına həmçinin xaricdə yaşayan Azərbaycanlıların və ölkədə məskunlaşan xaricilərin daxil olması ilə, və vətəndaşların və seçicilərin sayının hesablanması metodologiyaları arasındakı müxtəlifliklə qismən izah edilməsini qeyd edir; lakin, fərqlə əlaqədar ictimaiyyətə məlumatın yetərincə çatdırılmaması seçicilər arasında seçici siyahılarına olan inama mənfi təsir göstərə bilər.

Seçki məntəqəsinin ərazisində yaşaması təsdiq edə bilən və seçki hüququ olan vətəndaş MnSK-da əlavə seçici siyahısında qeydiyyatdan keçə bilər. Əhatəli olmasına baxmayaraq, seçki günü seçici qeydiyyatı beynəlxalq yaxşı təcrübələrə uyğun deyil.[8]Bu amil seçicilərin səsvermə günündən əvvəl seçici siyahısına daxil olunması üzrə rəsmi orqanların və seçililərinin marağını azaltmış ola bilər. Seçki günü əlavə seçici siyahılarında adları qeydə alınmış şəxslərin sonradan daimi seçici siyahısına daxil edilməsi ilə əlaqədar qanunda müvafiq tələbin olmamasına baxmayaraq, MSK ATƏT/DTIHB-NIN SMM-na bunun təcrübədə icra edilməsini demişdir.

Qanunvericiliyə uyğun olaraq, seçicilər qeydiyyatda olduqları yerdən kənarda yerləşən seçki məntəqəsində səsvermək hüququ verən qeydiyyatdan çıxma vəsiqəsi almaq üçün müraciət edə bilərlər.MSK 450,000-nə qədər qeydiyyatdançıxma vəsiqəsi çap etmişdir. MSK verdiyi məlumata əsasən, onlardan 30,000 ədədi DSK və MnSK-lar tərəfindən müvafiq vaxtda seçicilərə paylanmışvə sonuncular tərəfindən seçki günü istifadə olunmuşdur.

---

[6]Oktyabrın 4-də MSK ATƏT/DTIHB-NIN SMM-na bildirmişdir ki, hərbi hissələrdə, həbsxanalarda, xəstəxanalarda və dənizdəki neft platformalarında səs vermək üçün əlavə 130,000 seçici qeydiyyatdan keçmişdir.
[7]Eyni zamanda, Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin məlumatına əsasən, qurum tərəfindən yaşı 16-a çatmış Azərbaycan vətəndaşlarına verilən şəxsiyyət vəsigələrinin sayı 6,3 milyona yaxın olmuşdur. Bundan əlavə, MSK seçki məntəqəsinin ərazisində ən azından 6 ay yaşamaq tələbinə cavab verməyən şəxslərin siyahısını təqdim etməmişdir.
[8]Venesiya Komissiyasının 2002-ci ildə qəbul etdiyi Seçki Məsələləri üzrə Nümunəvi Təcrübə Məcəlləsinin 1.2 bəndi (iv) tövsiyyə edir: “İstənilən halda seçki məntəqələrinə seçki günü öz qərarı ilə seçiciləri qeydiyyata almasına icazə vermək olmaz”.

## Namizədin Qeydiyyatı

Namizədin rəsmi qeydiyyat müddəti avqustun 2-dən sentyabrın 16-dək davam etmişdir. Konstitusiyanınmüvafiq maddəsinə görə, yaşı 35-dən az olmayan, ikili vətəndaşlığı və digər dövlətlərin qarşısında heç bir öhdəliyi olmayan, habelə ağır cinayətə görə mühakimə edilməyən,ən azı 10 ilAzərbaycan Respublikasında daimi yaşayan, və ali təhsilli vətəndaşları prezident seçilə bilərlər.Ali təhsilli olmaq və ölkədə ən azından 10 il yaşamaq tələbi əsassızdır və beynəlxalq standartlarla ziddiyət təşkil edir.

İddialı şəxsin namizədliyi özü və yaxud ən azı 100 seçicidən ibarət təşəbbüs qrupu, rəsmi qeydiyyatı olan siyasi partiya və ya partiyalar koalisiyası tərəfindən irəli sürülə bilər. Bütün namizədlər ən azı 60 dairənin hər birindən ən azı 50 imza toplamaq şərtilə, qeydə alınmış seçicilərin ən azı 40,000 imzasını və maliyyə aktivləri barədə bəyannamə təqdim etməlidirlər.

MSK 21 potensial namizədin irəli sürülməsi ilə əlaqədar sənədləri qəbul etmişdir. MSK ikili vətəndaşlıq, ən azı 10 il ölkədə daim yaşamaq tələbinə cavab verməməsi və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmaması ilə əlaqədar kifayət qədər əsasların olmamasına əsasında cənab Rüstəm İbrahimbəyovun (DQMŞ) namizədliyini qeydə almamışdır. Cənab İbrahimbəyov Mərkəzi Seçki Komissiyasının qərarından Bakı Apellyasiya Məhkəməsinə və daha sonra, sentyabr ayının 6-da, Ali Məhkəməyə müraciət etmişdir, lakin hər iki instansiya MSK-nın qərarını qüvvədə saxlamışdırlar. Bununla bərabər, DQMŞ yeni şəxsin, cənab Cəmil Həsənlinin namizədliyi irəli sürmüş, və o, sentyabrın 12-də MSK tərəfindən qeydə alınmışdır.

Qeydiyyat üçün təqdim olunan sənədlərin yoxlanılması MSK-nın ekspert qrupu tərəfindən həyata keçirilir. Qanunvericiliyə uyğun olaraq, bu sənədlərin yoxlanması prosesi namizədlərin səlahiyyətli nümayəndələri və müşahidəçilərin iştirakı üçün açıq olmalıdır. Lakin, bir neçə namizəd iddia etmişdir ki, onlara sənədlərin yoxlanılması vaxtı haqqında məlumat verilməmişdir.[9] Ön dörd potensial namizəd qanunla tələb olunan sənədləri təqdim etmişdir ki, onlardan da dördünün namizədliyi imzaların yoxlanılması zamanı etibarlı imza sayının tələb olunan həddən az olması səbəbindən qeydə almamışdır.[10]MSK təlimatlarında imzaların yoxlanılması üzrə təfsilatlı prosedurun olmasına baxmayaraq, oxşar imzaların "ehtimal" əsasında etibarsız sayılması özbaşına qərarların verilməsi ilə nəticələnə bilər.[11]Namizədliyi qeydə alınmamış şəxslər MSK bu qərarlarından məhkəməyə müraciət etmiş, lakin hamısı uğursuz nəticə vermişdir. (bax Şikayət və Müraciətlər)

---

[9] Seçki Məcəlləsinin 59.3 maddəsinin tələbinə əsasən imza vərəqələri yoxlanılarkən müvafiq seçki komissiyasında namizədlər, onların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər və müvafiq seçki komissiyası "imza vərəqələrinin yoxlanılması haqqında... qabaqcadan məlumat verməlidir".

[10] Fuad Əliyevin (müstəqil şəkildə öz namizədliyini irəli sürmüş) sentyabrın 6-da; Əhməd Orucovun (Azadlıq Partiyası) və Əli Əliyev (Vətəndaş və İnkişaf Partiyası) senytabrın 8; və İlqar Məmmədov (müstəqil şəkildə öz namizədliyini irəli sürmüş) sentyabrın 9-da.

[11]Qeydiyyata alınmayan namizədlər MSK-nın ekspert qrupunu imzaların "başqa imzaya bənzəmə" və ya "bir qrup şəxs tərəfindən imzalanmış" adı altında etibarsız hesab etməsini məhkəmədə mübahisələndirilmişdirlər. Qanuvericiliyə əsasən, MSK hər bir seçicinin imza vərəqinə imza atıb-atmamasını dəqiqləşdirməli deyil, əslində seciçilərin imzalarını biri-biri ilə müqayisə etməlidir.

Seçkilərdə 10 namizəd rəqabət aparacaq ki, bunlardan səkkizinin namizədliyini siyasi partiyalar, birinin namizədliyini təşəbbüs qrupu və biri isə namizədliyini müstəqil olaraq özü irəli sürüb. Namizədliyi irəli sürülmüş şəxslər arasında qadın yoxdur.

## Seçki Mühiti

Rəsmi seçkiqabağı təşviqat kampaniyası sentyabrın 16-da başlamışdır. Seçki gününə yaxın təşviqat tədbirlərinin artmasına baxmayaraq, ümumiyyətlə kampaniya mütəəssir keçmiş və ictimaiyyət arasında məhdud marağa səbəb olmuşdur.

MSKseçkiqabağı ödənişsiz təşviqattədbirlərinin keçirilməsi üçün 152 qapalı və açıq məkanın siyahısını dərc etmişdir. Ümumiyyətlə, namizədlərin bu yerlərdə görüş keçirməsi üçün müraciətləri təmin olunmuşdur; müxalif namizədlər Bakıda beş mitinq təşkil etmişdirlər. Bəzi namizədlər ATƏT/DTIHB-NIN SMM-na həmin məkanları ictimai tədbirlərin keçirilməsi üçün qeyri-məqbul olması haqda məlumat vermişdirlər. Eyni zamanda, rəsmilər tərəfindən sözügedən yerlər siyahısının müfəssəl adlandırması vətəndaşların azad toplaşma hüququna lüzumsuz məhdudiyyətin qoyulması anlamına gəlir. Nəzərə alsaq ki, siyasi rəqiblərin seçicilərlə ünsiyyəti 22 günlük rəsmi kampaniya müddəti ilə məhdudlaşır, görüş yerləri ilə əlaqədar yanaşma kampaniya keçirmək imkanlarını daha azaltmış olur. ATƏT/DTIHB-NIN SMM hazırkı Prezidentin tərəfdarlarının İmişli rayonunda təsdiq olunmuş yerlər siyahısından kənar məkanda keçirdiyi bir təşviqat tədbirini müşahidə etmişdir. Bir neçə namizəd seçki məntəqələrin yaxınlığında yerləşən xüsusi ayrılmış lövhələrdə öz təşviqat plakatlarını yerləşdirmişdirlər. Təşviqat-nəşr materiallarını qəsdən məhv etmə və polisə tabe olmamaq ittihamı ilə dördə nəfər həbs olunmuş və bu hərəkətlərinə görə 25 gündən 35 günə gədər azadlıqdan məhrum edilmişdirlər.[12]

ATƏT/DTİHB-nin SMM toplam 52 seçkiqabağı təşviqattədbirinin müşahidəsini aparıb. Ümumiyyətlə, seçkiqabağı təşviqat kampaniyası konkret siyasi platforma deyil, daha çox şəxsiyyətlər üzərində qurulmuş və əsaslı debatların çatışmaması ilə müşayiət olunmuşdur. Bununla belə, hazırkı Prezident təşviqat kampaniyasında prezidentliyi dövründə əldə etdiyi regional sabitlik, iqtisadi tərəqqi və digər nailiyyətlərə diqqət yönəldirdirsə, digər namizədlər müəyyən dərəcədə sosial-iqtisadi məsələlər, korrupsiya probleminə toxunmuş, bəzi namizədlər isə vətəndaş və siyasi hüquqların bərpası və prezident idarəetmə sisteminin ləğvinə çağırırdılar.

Hazırkı Prezidentin adından YAP-ın keçirdiyi seçkiqabağı təşviqat tədbirləri (mitinq və konsertlər də daxil) yaxşı təşkil və maliyyə baxımından təmin olunmuş təsəvvürü yaratmışdır. Hazırkı Prezidentin şəxsən təşviqat aparmamasına baxmayaraq, o, ölkə başçısı kimi regionlara səfərlər etmiş və tez-tez ictimai tədbirlərdə iştirak etmişdir.Digər namizədlərin seçkiqabağıtəşviqatı daha bəsit keçmiş, onlar kiçik miqyaslı mitinqlərdən, qapı-qapı gəzərək görüşlərdən, İnternet və social mediadan və bir neçə iri miqyaslı yürüşlərdən ibarət olmuşdur. Bəzi namizədlər heç bir görüş keçirməmiş və plakat çap etməmişdir.

[12] DQMŞ-nin Bakıda 22 sentyabr tarixində keçirdiyi minitqindən sonra üç nəfər həbs olunmuş və onlara 25 gündən 35 günə gədər azadlıqdan məhrum etmə cəzası təyin olunmuşdur. Sentyabrın 28-də isə cənab Həsənlinin (DQMŞ) plakatlarını məhv edən bir şəxs 25 gün müddətinə həbs olunmuşdur. Bütün qərarlar appelyasiya instansiyası tərəfindən qüvvədə saxlanılmışdır.

Kampaniya dövründə siyasi şəxslərin ailə üzvlərinin hədələnməsi də daxil olmaqla, namizəd və seçicilərə qarşı hədə-qorxu halları haqda etibarlı mənbələrdən məlumatlar daxil olmuşdur.[13]ATƏT/DTİHB-nin SMM YAP-ın keçirtdiyi mitinqə aşkar məcbur etmə hallarını və DQMŞ-in mitinqini pozma cəhdlərini müşahid etmişdir.[14] Sentyabrın 12-də mart ayından etibarən həbsdə saxlanılan yeddi gənc siyasi fəallara qarşı 12 ilə gədər azadlıqdan məhrum etmə cəzası daşıyan zorakılıqlarla müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə maddəsilə yeni ittiham irəli sürülmüşdür. ATƏT/DTİHB-nin SMM-nın müşahidə apardığı müddət ərzində, Baş Prokurorluq dindirmək məqsədilə DQMŞ-in dörd üzvünü çağırmış, DQMŞ-in sentyabrın 22-də keçirdiyi mitinqlə bağlı xəbərdarlıq yaymış, və DQMŞ üzvlərinin fəaliyyəti ilə əlaqədar aparılan istintaq barədə mətbuatda bəyantla çıxış etmişdir. Bəzi namizədlər görüşlər üçün özəl sahibkarlara məxsus yerlərin icarəyə götürülməsində ehtimal olunan təzyiqlər səbəbindən çətinliklərlə üzləşmişdirlər.[15]Ümumiyyətlə baxanda, bu hallar ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 7.7-ci bəndində tələbinə uyğun olaraq namizədlərin ədalətli mühitdə kampaniya aparması imkanları və həmçinin, seçicilərin "intiqam hissindən azad" şəkildə səs verməsi üzrə narahatlıqları artırır.[16]

Milli azlıqlar ölkə əhalisinin doqquz faizini təşkil edir. Konstitusiya ölkədə yaşayan azlıqların dil, mədəni, təhsil və digər hüquqlarını təmin edir. Qanunvericildə seçki bülletenləri və ya digər seçki materiallarının milli azlıqların dilində dərc olunması ilə əlaqədar heç bir tələb mövcud deyil. Azlıqlarla əlaqədar məsələr təşviqat kampaniyası dövründə nəzərəçarpan yer tutmamışdır.

**Kampaniyanın Maliyyələşdirilməsi**

Seçkiqabağı təşviqat kampaniyasını maliyyələşdirmək üçün namizədlərdənbankda xüsusi seçki hesabı açmaq vəkampaniya dövründə olan ianə və xərclər barədə üç dəfə hesabat təqdim etmək tələb olunur: qeydiyyata alındığı gün ilkin hesabat, seçki gününə 20 gündən 10 günə qalan müddət ərzində aralıq hesabat və seçkinin nəticələri rəsmi dərc ediləndən ən geci 10 gün sonra yekun hesabat. Bütün ianələr namizədin bank hesabına köçürmə yoluyla həyata keçirilməli və ianə edən fiziki şəxslər şəxsi məlumatlarını təqdim etməlidirlər.[17]Namizədlərinyalnız xüsusi bank hesabı açandan sonra ianələri

---

[13]Sentyabrın 23-də Bakıda cənab Həsənlinin (DQMŞ) mətbuat xidmətinin rəhbərinin 16 yaşlı oğluna naməlum şəxslər tərəfindən biçaq zərbələri endirilmişdir. Əli Kərimlinin (AXCP sədri) oğlu sentyabrın 22-də DQMŞ-nin keçirdiyi minitqdən sonra saxlanılan üç şəxsdən biridir. Bundan əlavə, DQMŞ-a aid təşviqat materiallarını paylayan üş şəxs polis tərəfindən saxlanılmışdır (ikisi Gəncədə, biri isə Qəbələ rayonunda), bunlardanbirinə qarşı xuliqanlıq ittihamı irəli sürülmüş və oktyabrın 4-də ona qarşı yeddi il azadlıqdan məhrum etmə cəzası tətbiq olunmuşdur.

[14]ATƏT/DTİHB-nin SMM YAP-ın təşkil etdiyi mitinqin başa çatmasından öncə insanların ərazini tərk etməsinin qarşısının alınması hallarını sentyabrın 20-i Qaxda, sentyabrın 23-ü Şamaxıda, sentyabrın 25-i Mingəçevirdə, sentyabrın 30-da Balakəndə, oktyabrın 3-ü Qusarda, və sentyabrın 27-si Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının Bakıda təşkil etdiyi mitinqində müşahidə etmişdir.

[15]Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) Mingəçevir şəhərində; Müsavat Partiyası, AXCP və Ümid Partiyası Naxçıvan Muxtar Respublikasında.

[16]ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 7.7-ci bəndi bəyan edir: üzv ölkələr siyasi təbliğat-təşviqat Kampaniyası zamanı partiyaların və namizədlərin öz fikirlərini və hazırlıq səviyyələrini azad və ədalətli şəkildə təqdim etməsini mümkün etmək üçün qanun və dövlət siyasətini təmin etməlidirlər... və hədə-qorxu mühiti olmadan və cəza ilə üzləşmək hissi keçirmədən səs vermək imkanı təqdim edən ədalətli və azad mühitdəkeçirilməsini təmin etməlidirlər.

[17] Namizədlərin seçki fondu məbləğinin yuxarı həddi 10 milyon manatdan çox ola bilməz. Vətəndaşların könüllü surətdə köçürdüyü ianələr 3000 manatdan, hüquqi şəxslərin könüllü ianələri 50,000 manatdan, namizədliyi irəli sürmüş partiya və ya qrup tərəfindən isə ianə 250,000 manatdan artıq ola bilməz. 1 avro 1.05 Azərbaycan manatına (yeni Azərbaycan manatı) dəyişdirilir.

toplamağa başlaması onların təşviqat kampaniyası üçün vəsait cəlb etmə imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Bəzi namizədlər bütün iştirakçılara bərabər şəraitin yaradılması naminə kampaniya üçün ictimai fondların bərpasına çağırmışdırlar.

MSK-nın verdiyi məlumata əsasən, bütün namizədlər hesabatlarla əlaqədar tələblərə riayət etmişdirlər. MSK namizədlərin təqdim etdiyi hesabatlardan iri ianə və ya xərclər üzrə yalnız seçilmiş məlumatı dərc etməyə borculudur,[18]və bu öhdəlik namizədin fərdi maliyyə vəsaitləri və ya aktivlərinə şamil olunmur.[19]Namizədin kampaniya dövründə istifadə etdiyi maliyyə vəsaitləri seçki prosesinin heç bir mərhələsində auditin predmeti olmur. İctimai araşdırma üçün məlumatın olmaması və auditin keçirilməməsi kampaniyada istifadə olunan vəsaitlərin şəffaflığını və hesabatlılığını məhdudlaşdırır.

## Media

Konstitusiyada ifadə azadlığını, mətbuat azadlığını və informasiya əldə etmək hüququnu təsbit edir. Lakin, böhtan üç ilə qədər azadlıqdan məhrum etmə məsuliyyəti daşıyan cinayət əməli olaraq qalmaqdadır. Konsitusiyanın 106-ci və Cinayət Məcəlləsinin 323-ci maddəsi Prezidentin şərəf və layaqətini ləkələmə və ya alçaltmanı qadağan edir, və beləliklə, beynəlxalq standartlara zidd olaraq ifadə azadlığına lüzumsuz məhdiyyət qoyur.[20] Əksəriyyət tərəfindən İnternetin azad məkan kimi qəbul olunması və onun istifadəçilərinin sayının artmasına baxmayaraq, Cinayət Məcəlləsinə edilən son dəyişikliklər İnternet informasiya ehtiyyatlarına difamasiya müddəalarının tətbiqinitəqdim etmişdir.[21]Həbslər, cinayət təqibi, fiziki hücumlar və jurnalistlərə qarşı digər təzyiq formaları kampaniyanın işıqlandırılması da daxil olmaqla, mətbuatla əlaqədar vəziyyətə mənfi təsir göstərmişdir.[22]Jurnalist Pərviz Həşimli odlu silahın qeyri-qanuni saxlanması ittihamı ilə sentyabrın 17-də həbs olunmuşdur. Oktyabrın 4-də ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi Dunya Miyatoviç bəyan etmişdir ki: “jurnalistlərə qarşı edilən zorakılıq Azərbaycanda media azadlığının vəziyyətinin pisləşməkdə davam etdiyini göstərir”.[23]

Siyasi məlumatların yayılması sahəsində televiziyanın əsas mənbə olmasına baxmayaraq, ATƏT/DTIHB-NIN SMM-lə həmsöhbət olan bir neçə şəxs bütün yayım şirkətlərinə hökümət tərəfindən birbaşa təsir edilməsini və bunun nəticəsində plüralizmin faktiki olmamasını qeyd etmişdirlər. Namizədlərin

[18]Namizəd 10,000 AZN-dən artıq vəsait xərclədiyi kimi MSK seçkiqabağı təşviqat kampaniyasının xərcləri barədə məhdud məlumat dərc etməlidir. Eyni zamanda, MSK 5,000 AZN-dən artıq ianə edən hüquqi şəxslərin və 250 AZN-dən artıq ianə edən fiziki şəxslərin adlarını dərc etməlidir.

[19]Cənab Həsənli MSK-ya müraciət edərək bütün namizədlərin maliyyə və şəxsi aktivləri barədə məlumatlarını istəmişdir. MSK cavabında bu məlumatın açıqlanmasının qanunla qadağan olunmasını qeyd etmişdir.

[20]Baxın Linqens Avstriyaya qarşı, Ərizə No. 9815/82, 8 iyul 1986-cı ildə verilən qərar və digər işlər. Həmçinin, 1966-cı il *Mülki* və siyasi *hüquqlar üzrə beynəlxalq paktın 19-cu maddəsi və 2011-ci il BMT-nin İnsan Hüquqları üzrə Komitəsinin 34-cü Ümumi Şərhinin 13-cü bəndi.*

[21]“İnformasiya əldə etmək haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “Kommersiya sirri haqqında” qanunlara dəyişikliklər Parlament tərəfindən 12 iyun 2012-ci tarixində qəbul olunmuşdur.

[22]ATƏT/DTIHB-NIN SMM DQMŞ-nin sentyabrın 28-də və oktyabrın 4-də keçirdiyi təşviqat tədbirləri də daxil olmaqla, jurnalistlərin mitinqləri işıqlandırmaq cəhdinin qarşısının alınması və ya onların fiziki hücuma məruz qalması hallarını müşahidə etmişdir.

[23]Available at: http://www.osce.org/fom/106710

ATƏT/DTIHB-NIN SMM-na dediklərinə əsasən, seçkiqabağı təşviqat kampaniyası telefiziyada efir vaxtı almaq üçün demək olar ki, yeganə fürsətdir. Ödənişsiz və ödənişli yayım imkanı da daxil olmaqla, MSK-nın mətbuata çıxış sahəsində qərarları namizədin xeyrinə olmamışdır.

MSK namizədlər üçün ictimai yayımçı olan *İctimai Televiziya və Radio Yayımları Şirkətində*(İTV)dairmi masa formatında ödənişsiz efir vaxtı ayırmışdır.[24]Toplam olaraq hər namizədə dairmi masa formatında həftəlik 36 dəqiqə ödənişsiz efir vaxtı ayrılır: 18 dəqiqə televiziyada və 18 dəqiqə radioda. Namizədlərdən ikisi MSK tərəfindən təklif olunan dairmi masa formatının fikirlərin çatdırılması üçün səmərəli üsul olmadığını iddia edərək, bu formata etiraz etmiş və onlara ayrılan ödənişsiz efir vaxtının istədikləri kimi istifadə etmək hüququna malik olduqlarını bildirmişdirlər.[25]Sentyabrın 19-u namizədlərin dəyirmi masa formatında televiziyada keçirdiyi debatdan sonra,MSK Azərbaycan Respublikası Konstitusiyasının 106-cı maddəsi ilə qorunan Azərbaycan Respblikasının Prezidentinin şərəf və ləyaqətini və eyni zamanda onun ailə üzvlərinin şərəf və ləyaqətini alçaldan ifadələr istifadə etməsinə görə cənab Həsənliyə “ciddi” xəbərdarlıq etmişdir.(bax Şikayət və Müraciətlər)[26]

Ödənişli siyasi reklamların yayımlanmasına icazə verilsə belə, yerləşdirmə üzrə təklif yalnız İTV-dan gəlmişdir. İTV-dan ATƏT/DTIHB-NIN SMM-ə bildiriblər ki, yalnız bir şəxs - cənab Həsənli belə bir istəklə çıxış etmiş, lakin müraciətin ödənişli vaxtın ayrılması üçün qanunla müəyyən olunmuş müddətdən sonra daxil olması səbəbindən, ona rədd cavabı verilmişdir. Cənab Həsənlinin İTV-nin ödənişli efir vaxtı ayırmaqdan imtina etməsindən MSK-ya verdiyi şikayəti sonuncu tərəfindən rədd edilmiş və məhkəmə MSK-nın qərarını qüvvədə saxlamışdır.

ATƏT/DTIHB-NIN SMM ilə görüşündə İTV rəhbərliyi qeyd etmişdir ki, ictimai yayımçının namizədlərin xeyrinə və ya əleyhinə kampaniya aparmasına Seçki Məcəlləsi ilə qoyulan qadağalarsəbəbindən onlar gündəlik proqramlarda namizədlərin fəaliyyətini işıqlandırmayacaqlar.Sentyabrın 25-də MSK-nın Mətbuat qrupu üç media orqanını − Azadlıq Radiosu, BBC və Amerikanın Səsini- Seçki Məcəlləsinin xarici hüquqi şəxslərə seçki təşviqatında iştirak etməyi və təşviqat materiallarını yaymağı qadağan edən74.4.1 maddəsininin tələblərini pozmağıdayandırmağa çağıran bəyanat yayıb.[27]Bunun nəticəsində kampaniya haqqında mətbuatda reportaj tipli məlumatların sayı məhdudlaşmışdır.

[24]Dairmi masa həftədə üç dəfə gündə bir saat radioda (saat 21:00-da) və bir saat televiziyada (saat 19:00-da) yayımlanır və hər namizədə altı dəqiqə efir vaxtı təmin edir.

[25] Cənab İqbal Ağa-zadə (Ümid Partiyası) və Cəmil Həsənli (DQMŞ təşəbbüs qrupu). Cənab Həsənli MSK-ya yazılı müraciət edərək, qanunvericiliyə əsasən ona ayrılmış ödənişsiz vaxtın öz istəyinə əsasən “daha çox tamaşacının baxa biləcəyi vaxtda” yayımlanması tələb etmişdir, lakin MSK bü müraciəti rədd etmişdir. İTV-nin ATƏT/DTIHB-NIN SMM-a verdiyi məlumata əsasən televiziya auditoriyasının sentyabrın 17-də keçirilən dəyirmi masada izləyici payı 2.8%, sentyabrın 19-da isə 3.6% olmuşdur.

[26]Qanunda “ciddi xəbərdarlıq” anlayışının nə özü, nə də ehtiva etdiyi məna mövcud deyil. Bundan əlavə, cənab Haciyeva (Müasir Müsavat Partiyası) təhqir edən mülahizələr etdiyinə, və bununla da Seçki Məcəlləsinin 88.1 maddəsinin tələblərini pozduğuna görə “adi” xəbərdarlıq edilmişdir.

[27]Müzakirələr zamanı MSK-nın media qrupu *Azadlıq* radiosunun DQMŞ-nin sentyabrın 22-də keçirdiyi mitinqdən apardığı birbaşa reportaja istinad etmişdir. *Azadlıq*ATƏT/DTIHB-NIN SMM-a məlumat vermişdir ki, onlar istinad olunan maddəni mətbuat azadlığını məhdudlaşdıran amil kimi qiymətləndirir, çün ki, təşviqat kampaniyası haqqında balanslı məlumatların verilməsi kampaniyada iştirak hesab olunmamalıdır.

Müşahidə dövründə ATƏT/DTIHB-NIN SMM-nın media monitorinq qrupu namizədlərin məhdud sayda işıqlandırılmasını və plüralizmin çatışmamazlığını müşahidə etmişdir.[28] İTV daxil monitorinqi aparılan televiziya kanalları praymtaym xəbər proqramlarında seçkilərə 7 saat 42 dəqiqə vaxt ayırmışdır, bu da gündə təxminən 5 dəqiqə deməkdir. Bu vaxtın 98% hazırkı Prezidentə, 2%-dən az vaxt isə qalan 9 namizədə həsr olunmuşdur. Əsas məlumatlar seçkinin texniki aspektlərinə yönəlmişdir. Monitorinqi aparılan kanalların heç biri namizədlər arasında debatların keçirilməsi və yaxud namizədlərə (hazırkı Prezident də daxil) sual vermək üçün jurnalistlərə, ekspertlərə və ya ictimaiyyətə imkan yaradan proqramlar yayımlamamışdırlar.

Özəl çap mətbuatı seçiciləri bir sıra analitik məqalələr də daxil olmaqla, namizədlər haqqında geniş məlumatlarla təmin etmişdir. Bununla belə, özəl çap mətbuatı tirajın az və regionlarda yayımın məhdud olması ilə üzləşir.

Ümumiyyətlə, namizədlər üçün mətbuata kifayət gədər çıxış imkanı yaradılmamış, və siyasi alternativlər üzrə balanslaşdırılmış və açıq fikir mübadiləsi çatışmamışdır. Məhdudlaşdırıcı hüquqi çərçivə və kampaniya dövründə hazırkı Prezidentin fəaliyyətinin aşkar şəkildə qeyri-mütanasib işıqlandırılması namizədlər arasında bərabər şəraitin olmamasını daha da dərinləşdirmişdir. Bu ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 7.8 bəndinin tələbi ilə ziddiyat təşkil edir və seçicilərin məlumatlı seçim etmək imkanlarını məhdudlaşdırır.[29]

**Şikayət və Müraciətlər**

Seçicilər, namizədlərvə hansısa bir şəxsin namizədliyini irəli sürən şəxslər seçki hüquqlarının pozulmasına şərait yaradan hər hansı bir qərar, hərəkət və ya hərəkətsizlikdən yuxarı seçki komissiyalarına şikayət etmək hüququna malikdirlər.MSK-nın qərarlarından Bakı Apellyasiya Məhkəməsinə və sonuncunun qərarından son instansiya məhkəməsi olan Ali Məhkəməyə şikayət vermək olar.2011-ci ildə aparılmış bir sıra məhkəmə islahatları nəticəsi olaraq İnzibati Prosessual Məcəllə  qəbul olunmuş və Apellyasiya məhkəmələrində (Bakı) yaradılan İnzibati-İqdisadi Kollegiyalar yaradılmış ki, onlar və Ali Məhkəmə seçki ilə bağlı şikayətlərə baxır. Bu islahat seçki işlərinin mühkəmə aidiyyatını dəyişməklə ümumi məhkəmələrdə və apellyasiya məhkəməsinin mülki işlər üzrə kollegiyasında seçki işlərinə baxılması zamanı rast gəlinən çətinlikləri aradan qaldırmışdır.

MSK şikayətlərin araşdırılmaq və fərdi müraciətlərlə əlaqədar rəy vermək üçün doqquz nəfərdən ibarət ekspert komissiyasıyaratmışdır. Keçmişdə olduğu kimi, bu seçkilərdə də, qanunla nəzərdə tutulmasına baxmayaraq, MSK ekspert komissiyalarını kənardan cəlb olunan ekspertlərdən tərtib etməmiş, əksinə MSK üzvlərini və əməkdaşlarını ekspert komissiyasına təyin etmək qərarı vermişdir. Şikayətlər ekspert komissiyanın bir üzvünə təhvil verilir ki, o, məsələni nəzərdən keçirir, ərizəçinin iddiasını araşdırır və

---

[28]ATƏT/DTIHB-NIN SMM praym taym zamanı altı televiziya kanalının monitorinqini həyata keçirib: dövlət televiziyasıolan AzTV, ictimai yayım şirkəti İTV, və özəl ATV, ANS, Lider və Xəzər TV və beş qazet: Azadlıq, Azərbaycan, Yeni Müsavat, Yeni Azərbaycan və Zerkalo.

[29]ATƏT-in 1990-ci il Kopenhagen Sənədi tələb edir ki, "seçki prosesində iştirak etmək istəyən bütün siyasi qruplara və fərdlərə bərabər şəraitdə mətbuata çıxış imkanlarının təmin edilməsində üzv olkələrə heç bir inzibati və ya hüquqi maneələr yaratmasınlar".

MSK-ya görüləcək hərəkətlərlərə dair tövsiyyələr verir. Müsbət təcrübə olaraq MSK və DSK-lar daxil olan şikayət və müraciətlərin qeydiyyatını aparır.

Seşkiqabağı dövr ərzində MSK-ya təşviqat kampaniyasının qaydalarının pozulması və kampaniyanın aparılmasına əngəllərin törədilməsi ilə əlaqədar toplam 15 şikayət daxil olmuşdur. Şikayətlər MSK-nın ekspert qrupuna daxil olan üzvlər tərəfindən şikayətçilərin iştirakı olmadan müxtəlif vaxtlarda baxılmışdır. Qanunla təmin olunmasına baxmayaraq, cənab Həsənli ekspert qrupunun işində iştirak və mövqeyini əsaslandırmaq üçün əlavə dəlillər təqdim etmək imkanının yaradılmamasından şikayət etmişdir. Bundan əvvəl, digər namizədə qarşı şikayətlər olduğu təqdirdə, MSK şikayətin subyektinə şikayət olmasından məlumat verməmiş və məsələ ilə əlaqədar həmin tərəfin mövqeyini öyrənməmişdir.[30]

MSK seçki gününü elan edəndən sonra Bakı Appelyasiya Məhkəməsinə əsasən namizədlərin qeydə alınması, namizədlərin iştirak etdiyi dairmi masalar və “exit-poll” aparmaq üçün akkreditasiya ilə əlaqədar 16 appelyasiya şikayəti verilmişdir. Bu instansiyanın 9 qərarından Ali Məhkəməyə müraciət olunmuşdur. Bütün şikayətlər tezləşdirilmiş şəkildə, bir-iki gün ərzində baxılmışdır. ATƏT/DTIHB-NIN SMM müşahidə dövründə keçirilən bütün məhkəmə dinləmələrində iştirak etmiş və bu müddət ərzində məhkəmələr tərəfindən şikayətçinin əlavə sübut gətirmək təklifinin dəfələrlə əsassız şəkildə rədd etməsinin, ərizəçinin sual vermək imkanının məhdudlarşdırmasının, MSK-nın təqdim etdiyi sübutları çox az şübhə altına almaqla bərabər şikayətçinin faktlarını ciddi sorğu-suala tutmasının, və qatnamələrdə şikayətçilərin sübutlarının əks etdirilməməsinin şahidi olmuşdur.

Namizədlərin qeydiyyatı üzrə MSK-nın qərarlarından şikayət edənlər əsas iki iddia irəli sürürlər: qanunla tələb olunmasına baxmayaraq, imzaların yoxlanması prosesinin vaxtı barədə namizədlərə və ya onların səlahiyyətli nümayəndələrinə MSK tərəfindən məlumat verilməmişdir; və MSK-nın işçi qrupunun tərkibində olan dəstxət ekspertinin imzaların saxta olması barədə “fərziyyələri” qeydiyyatdan imtina üçün tutarlı əsas hesab edilə bilməz. Şikayətçilərin fikirlərini dinləyərkən Bakı Apellyasiya Məhkəməsi şikayətçinin imzaların yoxlama prosesində iştirak etmək marağı haqqındaMSK-ya məlumat verib-verməməklərini soruşmuşdur, halbuki qanunla namizədlərdən və ya onların səlahiyyətli nümayəndələrindən MSK-ya belə bir istəklərin olması barədə məlumat verməsi qanunla tələb olunmur. Məhkəmə hesab etmişdir ki, namizədə məlumatın verilməməsi MSK-nın qərarının ləğvi və ya imzaların yenidən yoxlanılması tələbi üçün tutarlı əsas ola bilməz.

Şikayətçilər həmçinin imzaların saxta imzaya oxşaması, digər sözlə “bir nəfərin bir neçə secici əvəzinə imzalaması” ehtimalı ilə imzaların etibarsız hesab olunmasından məhkəməyə müraciət etmişdirlər. Sözügedən mübahisəli məsələ hal-hazırda Avropa İnsan Haqları Məhkəməsi (AİHM) tərəfindən baxılan

[30]Seçki Məcəlləsinin 112.1.7-9 maddəsi şikayətçinin iştirak və dəlillər təqdim etmək hüququ tanımasına baxmayaraq, MSK qarşısında şikayətin subyektinə şikayət barədə məlumat vermək və yaxud məsələnin baxılmasına təhkim olunmuş ekspertə şikayətçi tərəfindən rəyin bildirilməsinə imkan yaratmaq tələbini qoymur. ATƏT/DTIHB-NIN SMM-nin dərc etdiyi İkinci Aralıq hesabatında sonra baxılan şikayətlərdə MSK şikayətin subyektini onaqarşı olan iddianın məzmunu ilə əlaqədar məlumatlandırmış və onlara cavab vermək imkanı yaratmışdır.

bir çox işlərdə öz əksini tapır.[31]Bakı Appelyasiya Məhkəməsi eskpert qrupunun ehtimalları əsasında MSK-nın verdiyi qərarların qanuniliyinə qiymət verməmiş, əksinə namizədin qeydiyyat üçün tələb olunan sayda imza toplamamağını aşkarladığına görə MSK-nın qərarını qüvvədə saxlamışdır.

Polisə müqavimət ittihamı ilə həbs olunan üç şəxsin işi üzrə dinləmələr zamanı Bakı Appelyasiya Məhkəməsi video yazıların baxılması ilə əlaqədar müdafiə tərəfinin verdiyi vəsatəti əsassız olaraq rədd etmişdir.

Ümumiyyətlə, seçki məsələri üzrə şikayətçilər səmərəli hüquqi müdafiə vasitələrindən yararlana bilmirlər. ATƏT-in 1990-ci il Kopenhagen Sənədinin 5.10-cu bəndinə təsbit olunmuş öhdəliklərə zidd olaraq, seçkilər üzrə şikayətlərə baxılma prosesi qərəzsizliyin çatışmamasızlığı və ərizəçiyə inzibati qərarlardan səmərəli hüquq-müdafiə vasitələrinə malikolmaq hüquqununtəmin edilməməsi şəraitində həyata keçirilmişdir. Bundan əlavə, MSK və Bakı Appelyasiya Məhkəməsinin prosedurlara riayət etməsi üzərində müvafiq nəzarətin əhəmiyyətli dərəcədə olmaması müşahidə olunmuçdur; məhkəmələrə müraciət edilərkən onlar prosedur pozuntularını nəzərdən keçirməmişdirlər.

**Yerli və Beynəlxalq Müşahidəçilər**

Seçki Məcəlləsi yerli və beynəlxalq seçki müşahidəsinin aparılmasını nəzərdə tutur. Ölkə vətəndaşları fərd olaraq və ya namizəd, siyasi partiya və qeyri-hökumət təşkilatlarının nümayəndəsi kimi müşahidəçiqismində qeydiyyatdan keçə bilərlər. Əhatəli proses şəraitində MSK və DSK-lar 51,898 müşahidəçini qeydə almışdır.[32]Seçki Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) hüquqi şəxs status olmadan qalmaqdadır və bu səbəbdən təşkilatın könülləri seçkini müşahidə etmək üçün fiziki şəxs kimi akkreditasiyadan keçmişdirlər. SMDT-nın ATƏT/DTIHB-NIN SMM-na verdiyi məlumata əsasən, polis və ya yerli icra hakimiyyəti orqanları müşahidəşilər üçün evlərdə keçirilən təlim kurslarının gedişatına müdaxilə etmişdirlər. Bu hallar onların azad toplaşma hüququnu məhdudlaşdırmışdır.[33]

MSK seçki günü "exit-poll" keçirmək üçün dörd fərqli təşkilatı qeydiyyata alıb. Sənədləri təqdim edən təşkilatlardan biri – "Sumqayıt Gənclərinin HüquqiMaarifləndirilməsi" İB müvafiq təcrübə ilə əlaqədar qoyulan tələbə cavab vermədiyinə görə qeydə alınmamışdır. MSK-nın yetərli/müvafiq təcrübə anlayışını izah etməməsinə baxmayaraq, Bakı Appelyasiya Məhkəməsi və sonradan Ali Məhkəmə İctimai Birliyin şikayətini təmin etməmişdir.

---

[31]Məsələn, *Ənnağı Hacıbəyli Azərbaycan qarşı* (AİHM, 2011) və *Behbudov Azərbaycan qarşı* (AİHM, 2011) işlərinin hər biri üzrə Məhkəmə tərəflərlə kommunikasiya aparmaqdadır və Azərbaycan Hökümətindən özbaşına qərarların verilməsindən qorunma mexanizmi də daxil olmaqla, imzaların yoxlanması prosesi barədə daha ətraflı məlumatın verilməsini xahiş etmişdir.

[32]6030 nəfər müşahidəçi MSK və 45,868 müşahidəçi DSK-lar tərəfindən qeydə alınmışdır. Toplam müşahidəçi sayından 26,335 nəfəri fərd olaraq və ya namizədin, 5033 nəfər qeyri-hökumət təşkilatlarının və 20,350 nəfər siyasi partiya və hərəkat nümayəndəsi kimi qeydə alınmışdır. MSK həmçinin 1295 beynəlxalq müşahidəçini qeydə almışdır.

[33]ATƏT-in 1990-ci il Kopenhagen Sənədinin 8-ci bəndində deyilir: "üzv dövlətlər yerli və beynəlxalq müşahidəçilərin olmasını seçkilər keçirilən dövlətdə seçki prosesinin daha təkmilləşdirilməsi kimi qəbul etməlidirlər".

## Seçki Günü

Seçki günündə BSMM hesabatları yüksək seçici iştirakı barədə məlumatlar vermiş; MSK-nın bu rəqəmin 72,3% səviyyəsində olmasını elan etmişdir. MSK ilkin nəticələri öz İnternet səhifəsində oktyabrın 9 saat 22:00-dan qısa müddət sonra yerləşdirmiş və gecə ərzində davamlı şəkildə yeniləmişdir. Oktyabrın 10 saat 05:30-da MSK DSK-ların həmin vaxta ən son nəticələrini əks etdirən protokollarını öz İnternet səhifəsində yerləşdirmişdir.

Müşahidə aparılan seçki məntəqələrinin 20%-də açılış prosedurları mənfi qiymətləndirilmiş; bunun əhəmiyyətli dərəcədə yüksək rəqəm olması ciddi problemlərin mövcudluğuna dəlalət edir. Ayrılan seçki bülletenlərinin sayının hesablanmaması və elan olunmaması (39%) və seçki qutularının möhürlərinin seriya nömrələrin qeyd olunmaması (19%) kimi prosedur çatışmamazlıqları dəfələrlə müşahidə olunmuşdur. Mövcud tələblərə zidd olaraq müşahidənin əhatə etdiyi MnSK-ların 30% qeydiyyatdan çıxma vərəqələrini ləğv etməmiş (ölkə üzrə bu vərəqələrin toplam sayı 420,000-nə yaxındır),və bununla da, hesabatlılığın təmin olunması üçün minimal tədbirləri gözlənilməmiş və potensial saxtakarlığın qarşısının almamışdır.

BSMM müşahidəçiləri əhatə etdikləri məntəqələrinin 12%-də seçki prosesini mənfi olaraq qiymətləndirmişdirlər. MnSK-nın və seçicilərin prosedur üzrə bilikləri müsbət qiymətləndirilmişdir. BSMM müşahidəçiləri 37 məntəqədə seçki qutularına topa bülleten atılmasının aşkar izləri haqda məlumat vermişdirlər. Yeddi məntəqədən gələn məlumata əsasən, barmaqları artıq işarələnmiş seçicilərə yenidən səs verməyə icazə verilmişdir. BSMM bir sıra prosedur pozuntuları da müşahidə etmişdir. Ən çox yayılan və narahatçılıq doğuran məsələ bir şəxsin bir neçə dəfə səsverməsinin qarşısının səmərəli alınmamasıdır: müşahidə aparılan məntəqələrin 19%-də seçicilərin barmaqlarının şəffafmürəkkəblə işarələnməsi bütün hallarda yoxlanılmamış, 11%-də isə mürəkkəb hamıya tətbiq olunmamışdır. Digər qanun pozuntuları arasında düzgün möhürlənməmiş seçki qutularını (4%) və seçici siyahısında ehtimala görə oxşar imzaların olmasını (4%) qeyd etmək olar. Müşahidə aparılan məntəqələrin 7%-də qrup şəklində səsvermə müşahidə olunmuşdur. Əhatə olunan məntəqələrin 9%-də bir qism seçicilər bülleteni gizli şəkildə işarələmirdilər. BSMM müşahidəçiləri tək-tək hallarda seçicilərin hədələnməsi və ya onların seçiminə təsir etmək cəhdlərini müşahidə etmişdirlər. Müşahidə missiyasının əhatə etdiyi və veb-kameraları olan məntəqələrin 8%-də onların quraşdırılma yeri səsvermənin gizli keçirilməsininbütövlüklə qorunması təmin edə bilməmişdır.

Müşahidə aparılan məntəqələrin 10%-də seçki prosesininbəzi mərhələləriMnSK və ya müşahidəçilərin görüntüsündən kənarda olması, prosesin şəffaflığının azalması ilə nəticələnir. Əhatə olunan məntəqələrinin 78%-də yerli müşahidəçilərin olmasına baxmayaraq, onlar əksər hallarda təmsil etdiklərini təşkülatın adını BSMM nümayəndələrinə söyləyə bilmirdilər. MnSK-ların işinə müdaxilə edən və yaxud onu yönəldən səlahiyyətsiz şəxslərlə əlaqədar 61 hal qeydə alınmışdır. BSMM müşahidəçilərinin verdiyi məlumata əsasən, baş çəkdikləri məntəqələrin 3%-də onlar məhdudiyyətsiz və yaxud MnSK-nın tam əməkdaşlığı olmaması səbəbindən öz vəzifələrini icra edə bilməmişdilər.

Səslərin hesablanması xeyli dərəcədə mənfi hallarla səciyyələnmiş, müşahidə olunan seçki məntəqələrinin 58%-da pis və yaxud çox pis kimi dəyərləndirilmiş və ciddi problemlərin olmasını nümayiş etdirmişdir. 19 seçki məntəqəsində səslərin hesablanması zamanı topa bülleten atılmasının izləri aşkar olunmuşdur. MnSK-ların böyük hissəsi seçici siyahılarında səs verən seçicilərin sayının hesablanması və mütləq yoxlamalar da daxil olmaqla, rəqəmlərin müqayisəsi kimi mühüm prosedurları icra etməmişlər.Adətən səslərin hesablanması prosesində yetərincə şəffaflıq təmin olunmamışdır. BSMM müşahidəçilərinin verdiyi məlumata əsasən, baş çəkdikləri məntəqələrin 24-də səslərin hesablanması üzrə prosedurları,üçdə birində isə seçki bülletenlərinin necə işarələnməsini aydın görə bilməmişdirlər.Müşahidə missiyasının əhatə etdiyi məntəqələrin 20-də seçki bülletenləri ağlabatan və ardıcıl üsulla hesablanmamışdır.Müşahidə olunan məntəqələrin 12-də MnSK üzvlərindən kənar şəxslər səslərin hesablanmasında iştirak etmişdirlər. Səslərin hesablanması zamanı aparılan müşahidə nəticəsində BSMM 15 məntəqədə seçici siyahılarına adların daxil edilməsi, həmçinin bir namizədin aldığı səslərinin digər namizədə yazılması da daxil olmaqla, protokolların nəticələri ilə manipulyasiyala hallarınıaşkar olunmuşdur.

Müşahidə olunan məntəqələrin 42-də MnSK üzvləri yekun protokola nəticələrin daxil edilməsində çətinliklər çəkmiş, və bir sıra hallarda, tələblərə baxmayaraq, yekun protokol qələmlə doldurulmamışdır.BSMM və namizədlərin müşahidəçiləri müraciət etsələr belə, adətən protokolun sürətini əldə edə bilməmişdirlər. Müşahidə olunan məntəqələrin yarısından çoxunda, qanunvericiliyin tələbinə zidd olaraq, MnSK ictimaiyyətin tanış olması üçün yekun protokolun sürətini müvafiq lövhəyə yerləşdirməmişdir. Bir neçə müşahidəçi qeyd etmişdir ki, səslərin hesablanması və protokolun doldurulması başa çatdıqdan sonra, MnSK bəlli olmayan səbəblərdən sənədlərin DSK-ya çatdırılmasını ləngitmişdir.Müşahidə olunan seçki məntəqələrin 17-də DSK-ya protokol aparılarkən MnSK sədrini digər iki üzv müşaiyət etməmişdir.

Nəticələrin protokollaşdırılmasının müşahidəsi 125 DSK-dan 95-də aparılmışdır. 23 DSK-dasözügedən proses mənfi kimi qiymətləndirilmişdir. MnSK protokollarının DSK-larda doldurulması (18 hal) kimi digər prosedur pozuntuları da müşahidə olunmuşdur. 22 halda müşahidəçilərə yekun nəticələri əks etdirən protokol verilməmişdir. Məntəqə seçki komissiyasının təqdim etdiyi nəticələrin yoxlanılması və emal olunması kimi mühüm prosedurlara adətən riayət olunmamışdır.

***Bu hesabatın ingilis dilində olan sürəti yeganə rəsmi sənəd hesab olunur.***
***Azərbaycan dilinə qeyri-rəsmi tərcümə olunub.***

## Missiya haqqında məlumat və Təşəkkürlər

**Bakı, 10 oktyabr 2013-cü il** - ATƏT/DTİHB-nin SMM öz işinə 28 avqust tarixindən başlamışdır. Missiya paytaxtda fəaliyyət göstərən 13 və Azərbaycanın müxtəlif bölgələrinə paylanan 30 uzunnmüddətli müşahidəçidən ibarətdir.

Seçki günü ATƏT/DTİHB-nin 319 uzunmüddətli və qısamüddətli muşahidəçi, ATƏT PA-dan 26 nəfər parlament üzvü və əməkdaşı daxil olmaqla 41 ölkədən 345 müşahidəçi akkreditasiya olunmuşdur. Seçki müşahidəsi ölkə boyu yerləşən toplam 5273 seçki məntəqəsinin 1151-də aparılmışdır. Müşahidəçilər səslərin sayılması üzrə 105 proses haqqında məlumat vermişdirlər. Nəticələrin protokollaşdırılmasının müşahidəsi 125 DSK-dan 95-də aparılmışdır.

Seçkiləri müşahidə etmək üçün dəvətə görə müşahidəçilər Azərbaycan Respublikasının rəsmi orqanlarına, nümayiş etdirilən əməkdaşlıq və akkreditasiya sənədlərinin təmin edilməsinə görə Mərkəzi Seçki Kommissiyasına, əməkdaşlıq və dəstəyə görə Xarici İşlər Nazirliyinə öz minnətdarlıqlarını izhar edirlər. Göstərilən əməkdaşlıq və dəstəyə görə müşahidəçilər həmçinin Azərbaycan Respublikasında fəaliyyət göstərən səfirliklərə və beynəlxalq təşkilatlara təşəkkürlərini bildirir.

Əlavə məlumat üçün aşağıdakı əməkdaşlarla əlaqə saxlayın:

- Tana de Zulueta, ATƏT/DTİHB-nin SMM Rəhbəri (Bakı: +004 12 465 99 02);
- Tomas Raymer, ATƏT/DTİHB-nin sözcüsü (+48 609 522 266) və ya
  Radivoye Qruyiç, ATƏT/DTİHB-nin Seçkilər üzrə Müşaviri (Varşava: +48 22 5200 664);
- Roberto Montella, Prezident Administrasiyasının rəhbəri, ATƏT PA (+43 699 104 286 81);

**ATƏT/ODİHR-nin SMM-nın ünvanı:**
Ləndmark mehmanxanası, 17-ci mərtəbə, Nizami küçəsi, 90A, Bakı, Azərbaycan
Tel.: +994 12 465 99 02, Fax: +994 12 465 99 06, e-poçt: office@odihr.az
İnternet səhifəsi: http://www.osce.org/odihr